# Aprel döyüşlərindən şanlı Zəfərə!

**Şanlı Zəfərə gedən yolun başlanğıcı olan Aprel döyüşlərindən 9 il keçir.**

Müdafiə Nazirliyindən bildirilib ki, Azərbaycan Ordusu 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq uğurlu əks-həmlə əməliyyatını həyata keçirdi. Aprel ayının 4 günü ərzində bölmələrimiz tərəfindən yerinə yetirilən adekvat cavab tədbirləri nəticəsində düşmən ağır məğlubiyyətə uğradı, Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının 2 min hektardan çox hissəsi azad edildi, həmçinin minlərlə hektar strateji əhəmiyyətli ərazi Ordumuzun tam nəzarətinə keçdi.

Azərbaycan əsgərinin gücünün, qüdrətinin ifadəsi kimi tarixləşən, qəhrəman oğullarımızın misilsiz şücaəti ilə qazanılan şanlı Aprel qələbəsi bütün dünyaya dövlətimizin, xalqımızın qüdrətini, hərbçilərimizin qələbə əzmini nümayiş etdirdi.

Aprel döyüşlərində qazanılan parlaq qələbə Ermənistanın uzun illər ərzində məğlubedilməz ordu yaratmaqları haqqında uydurduqları mifi dağıtdı.

Buna baxmayaraq, Ermənistan tərəfi yenidən müxtəlif istiqamətlərdə təxribatlara əl atmaqda davam edirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrimizə endirdiyi atəş zərbələrinə cavab olaraq əks-hücum əməliyyatı - 44 günlük Vətən müharibəsi başladı.

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Vətən müharibəsi və sonrakı uğurlu döyüş əməliyyatlarında Azərbaycan Ordusu tariximizə qızıl hərflərlə yazılan şanlı Zəfəri qazandı, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olundu və bütün şəhidlərimizin qisası alındı.

9 il əvvəl Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı - Aprel döyüşləri hər zaman Azərbaycan dövləti və xalqı üçün böyük Qələbənin başlanğıcı kimi xatırlanacaq.

**L.TƏHMƏZ,**
**"Respublika".**

Respublika.- 2025.- 3 aprel (№63).- S.11.